# ƏLİYEV İMAMVERDİ BARAT OĞLU



Əliyev İmamverdi Barat oğlu 1 oktyabr 1950-ci ildə İmişli rayonunun Qulubəyli kəndində doğulmuşdur. 1969-cu ildə Kürdmahmudlu kənd orta məktəbini bitirdikdən sonra İmişli rayon Hərbi Komissarlığının göndərişi ilə Saatlı rayon 9 saylı texniki-peşə məktəbinin sürücülük kursuna daxil olmuşdur. 1970-ci ildə sürücü peşəsinə yiyələnib, hərbi xidmətə gedir. 1972-ci ildə ordudan tərxis olunur və Bakı şəhəri Yasamal rayon Daxili İşlər Şöbəsində sürücü-milis nəfəri kimi əmək fəaliyyətinə başlayır. 1973-77-ci illərdə o, Bakı Maliyyə-Kredit Texnikumunun tələbəsi, 1978-ci ildə isə Bakı Xüsusi Milis Məktəbinin kursantı olmuşdur. İ.Əliyev təhsilini başa çatdırdıqdan sonra DİN-nin göndərişi ilə İmişli rayon DİŞ-nin mühafizə bölməsində baş inspektor vəzifəsində çalışır. 1987-ci ildə artıq o, İmişli RDİŞ-də sahə müvəkkili işləyirdi. 90-cı illərdə torpaqlarımızın bütövlüyü uğrunda qanlı döyüşlər başlanmışdı. 1991-ci ildə aralarında İmamverdi Əliyevin olduğu İmişli RDİŞ-nin bir qrup əməkdaşını Cəbrayıl rayon DİŞ-nə ezam etdilər. O, dəfələrlə ölümlə üzbəüz gəlmişdi. Ağır döyüşlərdə düşmənin 4 tankını sıradan çıxarmış, 28 nəfər erməni quldurunu məhv etmişdir. 15 noyabr 1991-ci ildə erməni yaraqlıları Ağoğlan (əvvəlki Hadrut) rayonunun Şaqax kəndinə hücuma keçmişdi. Yüzlərlə erməni yaraqlısına qarşı cəmi 17 nəfər polis əməkdaşı döyüşürdü. On saatdan artıq davam edən bu ölüm-dirim savaşında düşmən xeyli itki versə də, döyüşdə xüsusi rəşadət göstərən İmamverdi Əliyev qəhrəmancasına həlak oldu. İmişli rayonunda dəfn edilmişdir. Ailəli idi. İki övladı var. Azərbaycan Respublikası prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 saylı fərmanı ilə Əliyev İmamverdi Barat oğluna ölümündən sonra “Azərbaycanm Milli Qəhrəmanı” adı verilmişdir. Adına İmişli rayonunda küçə var. Qulubəyli kənd tam orta məktəbi 1992-ci ildən qəhrəmanın adını daşıyır. İmişli rayon Daxili İşlər Şöbəsi binasının önündə büstü qoyulmuşdur.